İstanbul

# Əsrlərin səssiz şahidi

# "Yerebatan Sarnıç"ı və onun əfsanəsi

**Mədəniyyət və tarixin cazibə mərkəzi olan İstanbulun səs-küylü küçələrinin altında gizlənmiş əsrarəngiz bir yeraltı saray, "Yerebatan Sarnıç"ı Ayasofya ilə Cağaloğlu arasında yerləşən qədim Bizans dövrünün ən möhtəşəm su anbarlarından biridir. Türk dilində "yerebatan" sözü "yerin altında batan" mənasını verir, çünki bu nəhəng su anbarı sanki yerin altında gizlənmiş bir sarayı xatırladır. Əslində isə o, VI əsrdə Bizans imperatoru I Yustinian tərəfindən şəhərin su ehtiyacını təmin etmək üçün inşa edilmiş böyük su anbarıdır. Anbarın içindəki su 19 km uzaqlıqda yerləşən Cebeciköy su kəməri və Belqrad meşəsindən əldə edilib. Antik dövrdə tikilmiş su anbarında hələ də su var və bu gün ziyarətçilər üçün açıq olan füsunkar bir tarixi əsərdir.**

"Yerebatan Sarnıç"ının uzunluğu 140 metr, eni 70 sm, hündürlüyü isə 9 metrdir. Su anbarının içində 80 min kubmetr su var. Anbarın yuxarı hissəsi örtülüdür və bir-birindən 4 metr məsafədə 12 cərgədə düzülmüş 336 mərmər sütundan ibarətdir. Sütunlar "spolia" texnikası ilə, yəni əvvəlki məbədlərdən və binalardan gətirilib, buna görə müxtəlif üslub və naxışlara malikdir.

Su anbarının şimal-qərb küncündəki ən məşhur elementlər iki Meduza başıdır. Onlardan biri yan tərəfə, digəri isə tərsinə yerləşdirilib. Postamentlərlə oyulmuş iki Meduza başı Roma dövrü heykəltəraşlıq nümunələri hesab olunur. Rəvayətə görə Meduza Yunan mifologiyasında yeraltı dünyanın qadın canavarları olan üç Qorqoniyadan biridir. Bu üç bacıdan yalnız ilan başlı Meduza ona baxan hər kəsi daşa çevirmək qabiliyyətinə malik olub. Həmin dövrdə böyük tikililəri və mühüm yerləri qorumaq üçün oraya Qorqon başlarının təsvirləri və heykəlləri qoyulurmuş. Meduzanın da bunu nəzərə alaraq qoyulduğu güman edilir. Başqa bir əfsanəyə görə, Meduza qara gözlü, uzun saçlı və mükəmməl bədən quruluşlu bir qadın olub. O, Zevsin oğlu Perseyə aşiq olub. Eyni zamanda Afinanın Perseyə aşiq olduğu və Meduzanı qısqandığı da deyilir. Afina Meduzanın saçını ilana çevirib, buna görə də Meduzaya baxan hər kəs daşa çevrilirmiş. Buna dözə bilməyən Meduza güzgüyə baxaraq özünü daşa çevirib. Buna görə də Meduzanın başı ona baxanların daşa dönməsinin qarşısını almaq üçün sütun altlarına tərs qoyulub.

Çoxtanrılı dinlərdən monoteist dinlərə keçidi təmsil etdiyi düşünülən Meduza başları haqqında digər bir hekayə də var. Qədim yunan mifologiyasında Meduza baxışları ilə insanı daş edə bilərmiş; başların bu şəkildə yerləşdirilməsi həmin "lənəti" təsirsiz hala gətirmək məqsədi daşıyır. Araşdırmalar isə göstərir ki, başlar Roma dövrünə aid məbəddən gətirilmiş sütun bəzəkləridir. Məkanın ölçülərinə uyğunlaşdırmaq üçün sadəcə bu formada qoyulub.





"Yerebatan Sarnıç"ı Ceyms Bondun "İstanbulda öldürülən ruh" filminə də ev sahibliyi edib. Filmdə anbarın sularından sirli keçid səhnələri yer alıb. Bu, da anbarın mistikasını daha da artırıb və beynəlxalq səviyyədə tanınmasına səbəb olub.

Su anbarı, Ayasofyanın düz yanında yerləşməsi ilə də diqqət çəkir. Bu iki tarixi quruluş arasındakı yaxınlıq İstanbulun altında yatan müəmmalı dünyanı daha da böyüdür. Anbar, təkcə tarixi yer deyil, həm də sirr və romantikanın görüşmə yeridir. Dincliyin, sükutun və ən əsası sakitlik hissinin yaşanıldığı su anbarı indi muzey kimi istifadə olunur. "Yerebatan Sarnıç"ı muzey kimi xidmət etməklə yanaşı, konsertlərə və vizual şənliklərə də ev sahibliyi edir. Çoxsaylı beynəlxalq və yerli qonaqlara ev sahibliyi edən su anbarı "Bazalika" kimi də tanınır. 532-ci ildə tikilmiş su anbarı İstanbulun ən böyük örtülü anbarı hesab edilir. Tikintisində qədim sütun daşlarından istifadə olunması, onun bu gün də möhtəşəm görkəmini qoruyub saxlamasına kömək edir. Su izolyasiyası üçün istifadə edilən xüsusi məhlul suvağı anbarın ən əhəmiyyətli xüsusiyyətlərindən biridir. Möhtəşəm ab-havası və bənzərsiz tarixi teksturası ilə su anbarı bu gün də muzeyə gələn ziyarətçiləri valeh edir. Bərpadan əvvəl suda balıqlar yaşayıb. Təmirdən sonra bəzi ərazilərdə fiziki şərait və suyun səviyyəsi balıq həyatı üçün yararsız hesab edilib və balıqlar çıxarılıb.

Qeyd edək ki, 1453-cü ildə İstanbulun Osmanlılar tərəfindən fəthindən sonra su anbarı tədricən istifadədən çıxıb. XVI əsrin ortalarında, 1545-ci ildə fransız səyyah və alim Petrus Gyllius yerli sakinlərin vedrələrlə su və hətta balıq çıxardıqlarını görüb mənbəni araşdırmağa başlayıb. O, bir qayıqla anbarın içində üzərək ölçülərini, sütunların sayını və memarlıq xüsusiyyətlərini araşdırıb və Avropada tanıdıb. Bu kəşf Avropada böyük bir maraq doğurub.

İstanbulun fəthindən bir əsr sonra balıqçılar tərəfindən kəşf edilən anbar, bu gün də tarixi abidə və maraq mərkəzi olmaqda davam edir. Su anbarının sonunda oyulmuş və naxışlı tovuz quşu gözləri və damla daşları da var. "Ağlayan Sütun" kimi də tanınan gözyaşları sütunu nəmli teksturasına görə göz yaşı təəssüratını oyadır. Ağlayan sütunun dərhal arxasında bir arzu quyusu var. Anbarla tanış olan ziyarətçilər, özlərini baxış platformasından suyun üzərində gəzən kimi hiss edirlər.

XX əsrdə Osmanlı və daha sonra Türkiyə hökumətləri tərəfindən müxtəlif təmizlik və bərpa işləri aparılan anbar, 1987-ci ildə tam bərpadan sonra turistlər üçün açılıb. Bu gün "Yerebatan Sarnıç" İstanbulun ən çox ziyarət edilən tarixi yerlərindən biridir. Su anbarı həm mühəndislik abidəsi, həm tarixi-mədəni irs nümunəsi, həm Bizans şəhərsalma texnologiyalarının ən yaxşı nümunələri, həm arxeoloji olaraq, spolia memarlığının canlı laboratoriyası, həm də UNESCO-nun qeyri-rəsmi qoruma siyahısında mədəni irsi abidə kimi tanınır.

Bu baxımdan "Yerebatan Sarınç"ı yalnız bir su anbarı deyil, həm də imperiya gücünün, mühəndislik zəkasının və mədəni qatların simvolu kimi tanınır. Onun dərin suları həm miflərin səsini, həm də tarixin izlərini qorumağa davam edir.





**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**

Respublika .- 2025.- 9 avqust(№165).- S.9.